*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 iyun 2017-ci il № 43 (2160) Qiymәti 25 qәpik


*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

## "Seçdiyim yolu Vətən sevgisi işıqlandırır"



*Azərbaycan Silahlı Qüvvələri Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və xalqın azadlığının qoruyucusudur. Bu müqəddəs missiyanı yerinə yetirərkən hər bir azərbaycanlı öz məsuliyyətini dərk edir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhə bölgələrində, düşmənlə üzbəüz mövqelərdə döyüş növbəsi aparan əsgərlərlə müntəzəm görüşləri bu məsuliyyəti daha da artırır.*

Silahlı Qüvvələrdə aparılan islahatlar şəxsi heyətin döyüş hazırlığının, maddi-texniki təminatının, hərbi qulluqçuların məişət şəraitinin yüksəldilməsinə zəmin yaradıb. Təlim və dərslərdə qazanılan bilik və bacarıqlar vaxtaşırı təşkil olunan yarışlarda nümayiş etdirilir. "N" hərbi hissəsində də "Ən yaxşı tank heyəti" adı uğrunda yarışlar başlanıb.

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit Elşən Yusifov günü-gündən möhkəmlənən ordumuzdan, yüksək döyüş texnologiyalarından, maddi-texniki təminatdan ağızdolusu danışaraq bildirdi ki, bütün bunların səbəbi ümummilli lider Heydər Əliyev məktəbinin layiqli davamçısı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərdiyi diqqət və qayğıdır.

**(Ardı 3-cü səhifədə)**



Cəsurlarımızla qürur duyuruq

2-ci səhifədə



Silahlı Qüvvələrimiz torpaqlarımızın toxunulmazlığına təminatdır

3-cü səhifədə



"Horadiz halayı"ndan "Qələbə halayı"na

7-ci səhifədə



İdman döyüş ruhumuzu artırır

8-ci səhifədə

# İlham Əliyev: Ordu quruculuğu məsələləri həmişə diqqət mərkəzindədir

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 40-cı cildi çapdan çıxıb




Bu yazının sərlövhəsinə çıxarılmış sözlər "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 40-cı cildindən götürülüb. Dövlətimizin başçısı 2010-cu il aprelin 23-də Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirədə çıxışında deyib: "Ordu quruculuğu məsələləri həmişə diqqət mərkəzindədir. Bu bizim üçün əsas məsələdir. Uzun illərdir ki, Azərbaycan torpaqları işğal altındadır. İşğal bu gün də davam edir. Biz elə etməliyik ki, hərbi imkanlarımızı maksimum dərəcədə gücləndirək. Bunu etmək üçün böyük işlər, praktiki tədbirlər görülür. Son illərdə Azərbaycanda ordu quruculuğu məsələləri uğurla həll olunur. Biz gündəlik həyatda elə etməliyik ki, hərbi potensialımızı daha da gücləndirək və Azərbaycan Ordusu ən yüksək standartlara cavab versin".

AZƏRTAC xəbər verir ki, çoxcildliyin 40-cı kitabı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Uilyam Börnsin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşünə dair materialla başlayır.

Çoxcildliyin bu nəşrinə daxil olan materiallar 2010-cu ilin fevralından may ayınadək olan dövrü əhatə edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 40-cı nəşrində dövlətimizin başçısının Estoniya Respublikasına dövlət səfəri zamanı bu ölkənin dövlət və hökumət başçıları ilə apardığı danışıqlara, Azərbaycan və Estoniya liderlərinin imzaladıqları birgə Bəyannaməyə, mətbuat üçün bəyanatlarla çıxışlarına, habelə Prezident İlham Əliyevin Moskvaya işgüzar səfərinə, bu şəhərdə Böyük Vətən müharibəsində qələbənin 65 illiyinə həsr olunmuş bayram şənliklərində iştirakına, Rusiyanın paytaxtında Xorvatiya Prezidenti ilə görüşünə dair materiallar əksini tapıb.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Dövlətimizin başçısının Rusiya, Niderland, Polşa, Koreya Respublikası, İran, Slovakiya, Rumıniya, Almaniya, Vyetnam, Mavritaniya, Türkiyə, ABŞ və digər ölkələrdən, habelə Avropa İttifaqının və Şurasının, ATƏT-in, Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizə səfər etmiş yüksək vəzifəli və nüfuzlu şəxslərini qəbul etməsinə dair materiallar da bu kitabda yer alıb.

Çoxcildliyin 40-cı kitabına Azərbaycan Prezidentinin AZƏRTAC-ın 90 illik yubiley mərasimində və MDB ölkələrinin Milli İnformasiya Agentlikləri Rəhbərləri Şurasının XI iclasında iştirak edən nümayəndə heyətlərinin başçıları ilə görüşünə, Bakıda Dünya Dini Liderlərinin Sammitində iştirakına, ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin iştirakçıları ilə görüşlərinə dair materiallar da daxil edilib.

Nəşrin bu cildində dövlətimizin başçısının Qəbələ, Salyan, Biləsuvar, Cəlilabad rayonlarına, Şirvan şəhərinə səfərləri, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşləri, regionların sosial-iqtisadi inkişafı dövlət proqramının həyata keçirilməsi istiqamətində görülən işlər, həmçinin Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş və yekun nitqləri öz əksini tapıb.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 40-cı cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Müdafiə Nazirliyinin mərkəzi aparatının yeni yeməkxanası istifadəyə verilib



*İyunun 5-də Müdafiə Nazirliyinin mərkəzi aparatı ərazisində müasir standartlara cavab verən yeni inşa edilmiş yeməkxana istifadəyə verilib.*

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçular və mülki işçilərin qidalanması üçün nəzərdə tutulan yeməkxanada şəraitlə tanış olub.

Məruzə edilib ki, iki zaldan ibarət yeməkxana və mətbəx yüksək keyfiyyətli qida məhsullarının hazırlanması üçün lazım olan bütün növ müasir tipli avadanlıqlarla təmin olunub. Xidməti və inzibati otaqlardan ibarət binaya kommunikasiya xətləri çəkilib, mərkəzləşdirilmiş istilik və kondisioner sistemi quraşdırılıb.

Qısa müddətdə inşa edilərək şəxsi heyətin istifadəsinə verilən yeməkxanadakı şəraitlə tanış olduqdan sonra Müdafiə Nazirliyinin rəhbərliyi burada çalışan mülki əməkdaşlarla görüşərək müvafiq tapşırıqlarını verib.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar gizir Elmar ZEYNALOVUNDUR**

# Cəsurlarımızla qürur duyuruq



Vətən keşiyində dayanan əsgərlərimizin görüşünə yollanırıq. Zabit Murad Muradov söhbətimizdə qeyd edir ki, şəxsi heyət Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, döyüş tapşırıqlarını yerinə yetirir. "Bizə etibar olunan ərazilər mərdliklə qorunur. Əsgər və zabitlərimiz sayıqlıqlarını müntəzəm artırırlar. Keçirilən məşğələlər, dərslər, təlimlər göstərir ki, ordumuz bu gün yüksək döyüş ruhuna, qələbə əzminə malikdir. Ölkə rəhbərliyinin və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə hərbi bölmələrimizdə nümunəvi xidmət üçün hərtərəfli şərait yaradılıb. Göstərilən diqqət və qayğıdan ruhlanan şəxsi heyətimiz fədakarlıq nümayiş etdirir."

Ön xəttə yollanırıq. Hər tərəf təbiətin gözəlliyi ilə əhatələnib. Kənd adamları təsərrüfat qayğıları ilə məşğuldurlar. Düşmənlə yaxın məsafədə yaşayan insanlar da iş-güclərindən qalmır, sabaha böyük inamla baxırlar. Onlarda bu inamı Vətən keşiyində dayanan mərd oğullar yaradıblar.

Baş leytenant Şamxal Abısovun sözlərinə görə, son vaxtlar düşmənlə təmas xəttində heç bir hadisə baş verməyib.

- Vətən oğulları düşmənin bütün hərəkətlərini dəqiqliklə izləyirlər. Əgər hər hansı bir hadisə olarsa, qabaqlayıcı tədbirlər həyata keçirilir. Şəxsi heyətin hər bir üzvü Vətənimizin müsəlləh əsgəridir. Bizə etibar olunan əraziləri göz bəbəyi kimi qoruyuruq. Ən böyük amalımız, məqsədimiz işğal olunmuş torpaqlarımızı azad etməkdir.

Sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elşad Qasımovu göstərərək deyir ki, belə mətin, qorxmaz övladları olan Vətən torpaqları işğaldan azad ediləcək. Öyrənirik ki, Elşad Qasımov Tovuz rayonunun Ağdam kəndindəndir. Milli Qəhrəman Naiq Yusifovun adını daşıyan orta məktəbin məzunudur. O da qəhrəmanların davamçısıdır, Vətən andına daim sədaqətlidir. Uşaqlığı müharibə illərinə təsadüf edib. Əli silah tutandan doğma yurdun müdafiəsində olmağa çalışıb. Elə buna görə də əsgəri xidmətini başa vurduqdan sonra yenidən hərbi həyata qayıdıb.

Kiçik çavuş Elşad Qasımov deyir:

- Mən sərhəd kəndində böyümüşəm. Həmişə hərbçilərlə təmasda olmuşuq. Kəndlərimiz, yaşayış məntəqələrimiz etibarlı müdafiə olunub. Əsgəri xidmətdən sonra Vətən müdafiəçiləri sırasına qoşulmaq qərarına gəldim. Qürur hissi keçirirəm ki, mən də mətin müdafiəçilər sırasındayam.

Qarşı tərəflərə baxırıq. Tam sakitlikdir. Baş atıcı Seymur Muxtarov bildirir ki, düşməni daim nəzarətdə saxlayırıq. "Onlar dərk edirlər ki, Azərbaycan əsgəri istənilən döyüş əmrini yerinə yetirməyə qadirdir. Ötən ilin aprel döyüşləri onlara yaxşı dərs oldu. Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızı işğaldan azad etməyə hazırıq".

Əsgərlərdən Ruhid Rüstəmov, İsgəndər Teymurov, Tural Hüseynzadə, Seymur Muxtarov və başqaları da Vətənə xidmətdən qürur duyduqlarını dedilər. Gördüklərimiz, eşitdiklərimiz deməyə əsas verir ki, Vətənimizin keşiyini çəkən, torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə hazır olan cəsarətli oğullarla biz də qürurlanırıq.

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

# “Seçdiyim yolu Vətən sevgisi işıqlandırır”

(Əvvəli 1-ci səhifədə)

“Bu qayğını hər addımda hiss edən hər bir hərbi qulluqçu üzərinə düşən tapşırıqları mətinliklə yerinə yetirməyə səy göstərir. Ordu sıralarında xidmət edən hər kəs ana Vətənimizə, doğulub boya-başa çatdığı torpağa ürəkdən, candan bağlıdır. Hər bir əsgərin bir amalı, bir məqsədi var: torpaqlarımızı azad etmək, şəhidlərimizin intiqamını almaq. Tankçılarımız hər zaman texnikanı saz və döyüşə hazır vəziyyətdə saxlayırlar. Nümunəvi xidməti ilə seçilən tank heyətləri Silahlı Qüvvələr üzrə keçirilən yarışlarda qabaqcıl yerləri tutmağı bacarırlar. Gizir Seymur Ağayevin komandiri olduğu heyət də belələrindəndir".

Təcrübəli zabitin haqqında danışdığı tank heyətini oxuculara tanıtmaq üçün gizirlə həmsöhbət oluruq.

Lənkəran rayonunda dünyaya göz açıb.

Erkən yaşlarından Vətən sevgisini dərk edən Seymur elə bu yaşlarda hərbçi olacağına qərar verərək, gələcək yolunu seçib.Yaşıdları arasında səbrlə danışmağı, təmkinlə qərar verməyi ilə seçilən Seymur, ən çətin anlarında belə Vətən sevgisinin istisinə qızınıb, hərbçi olacağı günü səbirsizliklə gözləyib. Yeniyetmə yaşlarında ermənilərin xalqımızın başına açdığı müsibətlərin şahidi olub. Xocalı faciəsini, Qarabağ uğrunda gedən döyüşlərdə canını qurban verən şəhidlərimizi heç bir zaman unutmayan gənc, böyük Vətən sevgisi ilə ordu sıralarına yollanıb. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra Silahlı Qüvvələrimizin Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursuna daxil olub. Tank komandiri ixtisasına yiyələnərək həyatını Vətəninə bağlayıb.



- Vətənin keşiyində durmaqdan müqəddəs, şərəfli peşə yoxdur. Doğulub boya-başa çatdığımız torpaq əcdadlarımızın əmanətidi. Bu səbəbdən ana torpaq deyirik, ona canımız, qanımızla bağlı oluruq.

Seymur da Vətənini sevən hər bir oğul kimi ön xətdə tank komandiri vəzifəsində xidmət etməsindən daim qürur duyur.

Tank heyəti tank komandiri, tuşlayıcı operator və sürücü-mexanikdən ibarətdir. Hədəfləri dəqiq vurmaq tuşlayıcı operatorun, texnikanı məharətlə idarə etmək sürücü-mexanikin, vaxtında və düzgün qərar vermək isə tank komandirinin başlıca vəzifəsidir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elçin Mustafazadə gizir Seymur Ağayevin komandiri olduğu tankın tuşlayıcı operatorudur. Hərbi xidmətə Tovuz rayonundan çağırılan Elçin də həyatının mənasını Vətən keşiyində durmaqda görür.

- Tarix boyu qəhrəmanlıq salnamələrində adları çəkilən igidlər öz inancları, Vətənləri, sevdikləri uğrunda döyüşlərə atılıb, - Elçin deyir. - Əsrlər keçsə də, yaddaşlarda yaşayıb, dastanlara mövzu olublar. İnsan həyata göz açdığı gündən Vətən sevgisi ilə böyüyür və özünə yol seçir. Seçdiyin yol ürəyindəki təpər, ruhundakı gücün işığıdır. Ömrünü Vətənə həsr edənlər də ürəyində təpər, ruhunda güc tapanlardır.

Tank komandirinin sözlərinə görə, sürücü-mexanik kiçik çavuş Yusif Kərimov xidməti ərzində özünü intizamlı, qorxmaz, vətənpərvər hərbi qulluqçu kimi tanıdıb. O, qısa müddət ərzində nümunəvi xidməti və peşəkarlığı ilə bütün şəxsi heyətin dərin hörmətini və ehtiramını qazanıb. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir.

Nizam-intizamlı əsgərlə həmsöhbət olanda Ağstafa rayonunda dünyaya göz açdığını öyrənirik. O da əsgər Elçin Mustafazadə kimi ömrünü Vətənə bağlayanlardan biridir.

- Vətən sevgisi ülvi hissdir. Bu sevgi yolunda canımızı qurban verməyə hazırıq. Ali Baş Komandanın əmri ilə irəli atılmağa, torpaqlarımızı azad etməyə tam qadirik.

Seymur, Elçin, Yusif kimi Vətənini sevənlərin, ömrünü bu yola bağlayanların adları mütləq qəhrəmanlar sırasında çəkiləcək...

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**



## Silahlı Qüvvələrin motoatıcı taborunun NATO qiymətləndirməsi üzrə təlimi başa çatıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin motoatıcı taborunun 2-ci səviyyəli NATO qiymətləndirməsi üzrə Qaraheybət Təlim Mərkəzində keçirilən səhra təlimi başa çatıb.

Səhra təlimində Silahlı Qüvvələrin 700 nəfərə yaxın şəxsi heyəti, 80-dək hərbi texnikası və 4 helikopteri iştirak edib.

Taborun qiymətləndirilməsini çoxmilletli qiymətləndirmə heyəti keçirib və NATO-nun Quru Qoşunları Komandanlığının müşahidəçiləri tərəfindən izlənilib.

*“Ən yaxşı artilleriya divizionu”*

# Silahlı Qüvvələrimiz torpaqlarımızın toxunulmazlığına təminatdır

*2017-ci il üçün nəzərdə tutulan döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Silahlı Qüvvələrində ən yaxşı artilleriya divizionlarının müəyyən edilməsi, raket və artilleriya birləşmələrinin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təlimlər keçirildi.*

Divizion komandirinin tapşırıqlarından sonra əvvəlcədən hazırlanmış atəş mövqelərinin və komanda-müşahidə məntəqələrinin tutulması üçün heyətlər silah və texnika ilə birlikdə hərəkət etdilər. Bu zaman fərdi və qrup halında normativlərin yerinə yetirilməsi yoxlanıldı. Normativləri yerinə yetirən şəxsi heyətə yeni atəş mövqelərinin və komanda-müşahidə məntəqələrinin tutulması tapşırığı verildi və bundan sonra artilleriyaçılar yerdəyişmə etdilər. Bir neçə mərhələdə həyata keçirilən təlimdə müdafiə əməliyyatlarının aparılması, düşmənin hücumunun dayandırılması və əks-zərbə endirilməsi ilə düşmənin məhv edilməsi və hücumun inkişaf etdirilməsi tapşırıqları icra olundu. Təlimin planına əsasən, şərti düşmənin komanda məntəqələrinə və artilleriyasına atəş zərbələri endirildi. Əks-zərbə atəş hazırlığı komandasından sonra artilleriya qurğuları düşmənin aşkar edilmiş qruplaşmalarını, hərbi və inzibati obyektlərini məhv etdi. Təlimdə hədəflərin artilleriya vasitələri ilə dağıdılması təmin olundu.

Döyüş atışlı təlimdə iştirak edən şəxsi heyətin bacarığını və qarşılıqlı fəaliyyətini izlədikdən sonra onlarla söhbət etmək imkanı qazandıq.

Kapitan Ramil Abdüləzizov söhbətə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təlim haqqında dediyi "Silahlı Qüvvələrin birlik, birləşmə və hərbi hissələrində bütün səviyyələrdə müasir döyüş üsullarının istifadəsi ilə genişmiqyaslı təlimlərin keçirilməsi düşmənə bir xəbərdarlıqdır, bizim üçün isə əsgəri həyat normasına çevrilibdir" fikri ilə başladı.

- Keçirilən təlimlər ordumuzun gücünün, qüdrətinin artırılmasına xidmət edir, - deyə zabit söhbətə davam etdi. - Şəxsi heyətimiz plana uyğun olaraq ən yaxşı artilleriya divizionunun müəyyən edilməsi məqsədilə Silahlı Qüvvələrimizin raket və artilleriya birləşmələrinin döyüş atışlı təliminə cəlb edilib. Bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, müasir silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, düzgün istifadə və istismar qaydalarını bilmək imkanı əldə edib.

Döyüş atışlı təlimlər ilk olaraq birlik daxilində həyata keçirildi və divizion birinciliyi qazandıq. Həmin təlimdə divizionlarımız arasında fərqləndiyimizdən bu mühüm sınaqda iştirak etmək bizə nəsib olub. Bütövlükdə birinciliyin əldə edilməsi şəxsi heyətin il ərzində gərgin əməyinin nəticəsidir. Təlimlər zamanı fədakarlıq göstərən bir neçə nəfərin - baş leytenant Zəfər İbrahimovun, əsgərlərdən Pərviz Hüseynovun, Arzuman Feyzlinin adlarını qeyd etmək istəyirəm. Təlimin müvəffəqiyyətlə başa çatmasında fərqlənənlər komandanlıq tərəfindən mükafatlandırılıb.

Kapitan Ramil Abdüləzizov onu da qeyd etdi ki, ordunun döyüş qabiliyyətinin və şəxsi heyətin peşəkarlığının artırılmasında hərbi təlimlərin mühüm rolu var. "Torpaqlarımızın işğal altında, ölkəmizin isə müharibə şəraitində olması hərbi təlimlərin planlı keçirilməsini, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin yüksəldilməsini zərurətə çevirib. Bugünkü hərbi təlimlər bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı uğurla yerinə yetirmək, torpaqlarımızı işğaldan azad etmək qüdrətindədirlər."



- Bu gün keçirilən hərbi təlimlərin nəticəsidir ki, Azərbaycan əsgərinin döyüş hazırlığı yüksək səviyyədədir, - deyə top komandiri əsgər Arzuman Feyzli də fikirlərini bölüşdü. - Əldə etdiyimiz nailiyyətlərdə komandirlərimizin zəhməti danılmazdır. Onlardan öyrəndiklərimizin və gərgin əməyin, zəhmətin hesabına uğur qazananlar sırasındayıq. Eyni zamanda şəxsi heyətdə hərbi xidmətə böyük maraq, Vətənə sonsuz bağlılıq olmalıdır.

Əsgər Şair Ağazadə də silahdaşının dediklərinin davamı olaraq bildirdi ki, bizim bir arzumuz, bir istəyimiz var - torpaqlarımızı işğalçılardan azad etmək. “Torpaqlarımızın müdafiəsi bizə tapşırılıb. Bu, müqəddəs vəzifənin təmin edilməsi məqsədilə nümunəvi xidmət etmək, müasir silah və texnikalardan istifadə qaydalarını dərindən mənimsəmək, nizam-intizama əməl etmək və bununla da döyüş qabiliyyətimizi daim artırmaq əsas vəzifəmizdir. Aprel zəfərini məhz döyüş qabiliyyətinin gücü hesabına qazandıq.”

Əsgər Məhəmməd İmamyarovun fikrincə, Azərbaycan Ordusunun yenilməzliyini bütün dünyaya nümayiş etdirən aprel döyüşləri Silahlı Qüvvələrimizin işğal altında olan torpaqlarımızı azad etmək iqtidarında olduğunu bir daha sübuta yetirdi: "Həmin döyüşdə artilleriyaçılarımız düşmənə sarsıdıcı zərbələr vurulmasında fədakarlıqla iştirak etdilər. Keçirilən təlimlərin hesabına növbəti döyüşlərdə də biz artilleriyaçılar bilik və bacarıqlarımızı, döyüş hazırlığımızı nümayiş etdirəcək və xalqımıza Qələbə sevinci bəxş edəcəyik."

Əsgərlər Samir Məhərrəmov və Elnur Rəsulov hesab edirlər ki, bu təlimlər və qazanılan uğurlar şəxsi heyətin ruh yüksəkliyi üçün əsas amillərdir. Döyüşlər olarsa, Vətən sevgisinə, vətənpərvərlik ruhuna köklənən Azərbaycan əsgərinin qarşısını almaq mümkün olmayacaq. Bütün qoşun növlərində döyüş hazırlığının gücləndirilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və döyüş əzminin yüksəldilməsi məqsədilə daim keçirilən döyüş atışlı təlimlər, məşqlər Qələbə gününün uzaqda olmadığına sübutdur.

Döyüş atışlı təlimi izlədikdən sonra tam əminliklə deməyə əsasımız var ki, bundan sonra da nəzərdə tutulan bütün işlər, qarşıya qoyulan məqsədlər uğurla yerinə yetiriləcək və Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın toxunulmazlığının əsas təminatıdır.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan hərbçiləri “Qafqaz Qartalı” təlimində iştirak edir

Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin əldə etdikləri razılığa əsasən, Tbilisi şəhərində üç ölkənin xüsusi təyinatlı qüvvələrinin "Qafqaz Qartalı" birgə təlimi keçirilir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin kontingentinin də iştirak etdiyi təlim iyunun 14-dək davam edəcək.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**6 iyun 2017-ci il.**
Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 115 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Horadiz və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Kursantlar hüquqi biliklərini artırırlar



*İnsan Hüquqları Günü ölkəmizdə də təntənə ilə qeyd edilir. Bununla bağlı "İnsan Hüquqları Aylığı" keçirilir, vətəndaşlara hüquqi məsləhət və tövsiyələr verilir.*

Silahlı Qüvvələrdə də İnsan Hüquqları Günü ilə bağlı tədbirlərdə hərbi qulluqçular fəal iştirak edirlər. Belə tədbirlər onların hüquqi biliklərini daha da artırır.

Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə "İnsan hüquq və azadlıqları", "İnsan Haqları" və "Beynəlxalq humanitar hüquq" mövzularında dərslər keçirildi, kitab sərgiləri təşkil edildi. Hərbi liseyin kitabxanasında keçirilən tədbirlərin birində mayor Natiq Rəhimov kursantlara mövzu ilə bağlı geniş məlumat verərək bildirdi ki, yer üzündəki bütün insanların irqindən, dilindən, dinindən və cinsindən asılı olmayaraq, hüquqi bərabərliyi vardır.

Dərsi Hərbi liseyin kitabxana müdiri Zenfira İsmayılova davam etdirdi. O qeyd etdi ki, ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi istiqamətində çox mühüm tədbirlər görüldü. "İnsan hüquq və azadlıqlarının daha da etibarlı qorunması üçün əsaslı islahatlar başlandı. Dövlət müstəqilliyi haqqında Konstitusiya aktında Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini tanıdığını bəyan etdi və beynəlxalq paktlarda əksini tapmış insan hüquq və azadlıqlarının təsbitinə böyük önəm verildi. 1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiyanın qəbul edilməsi ilə insan haqlarının qorunması istiqamətində çox mühüm addımlar atıldı. Azərbaycan Respublkasının Əsas Qanunu insan və vətəndaş azadlıqlarının, hüquqlarının təmin olunmasını dövlətin ali məqsədi olduğunu elan etdi. Bu da ölkədə aparılan irimiqyaslı islahatlar üçün möhkəm, dayanıqlı qanunvericilik bazası yaratmağa imkan verdi. Konstitusiyanın 26-cı maddəsinə əsasən, hər bir vətəndaşın qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır. Vətəndaşı olduğumuz Azərbaycan dövləti hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir".

Çıxışlar başa çatdıqdan sonra kursantlar kitab sərgisində iştirak etdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Erməni mütəxəssis Ermənistanın hərbi-siyasi rejiminə: “Külək əsdirsən, fırtınada boğularsan!”

*Aprel döyüşlərindən sonra Ermənistan tərəfi və işğalçı hərbi-siyasi rejimin müxtəlif vəzifəli şəxsləri döyüş əməliyyatları başlayarsa, Azərbaycanın mülki obyektlərinə, iqtisadi infrastrukturuna zərbələr endiriləcəyi barədə hədə-qorxu ilə dolu sərsəm açıqlamalarla çıxış edirlər. Metsamor Atom Elektrik Stansiyası üzrə mütəxəssisin Ermənistanın "Delovoy Ekspress" saytında yayılan məqaləsi belə açıqlamalara ən tutarlı cavabdır. AZƏRTAC erməni müəllifin "Külək əsdirsən, fırtınada boğularsan!" adlı həmin məqaləsini oxuculara təqdim edir.*

Son zamanlar Ermənistan kütləvi informasiya vasitələrində tez-tez Azərbaycanın infrastruktur obyektlərinə məhvedici zərbənin endirilməsi ilə bağlı əsassız fikirlər səsləndirilir.

"Tərksilah etmək məqsədilə" mülkü obyektlərə zərbələr endirilməsi öz-özlüyündə bir sıra suallar doğurur. Belə zərbə kimi və nəyi "tərksilah" etmək üçün tətbiq olunur? Biz onlara belə zərbəni necə endirməyi planlaşdırırıq? Bu növ zərbələrin endirilməsindən danışarkən hətta deyirik ki, Bakını və Azərbaycan Respublikasının neftqaz hasilatı rayonlarını və digər iqtisadi obyektlərini də vurmaqla ziyan verə bilərik. Məgər onlar bizim Silahlı Qüvvələrimizə təhlükədirlər?

Bütün bu suallara sizlər bizim strateqlərdən bəlkə də daha ağlabatan izahatlar ala bilərsiniz. Amma gəlin unutmayaq ki, qarşı tərəf, yəni, Azərbaycan da belə hədələrə, niyyətlərə və hərəkətlərə cavab verəcək.

Eyni zamanda, yaddan çıxarmayaq ki, Azərbaycan Ordusunun sərəncamında da məhvetmə qabiliyyətinə malik müasir tipli silah və sistemlər var və onların köməyi ilə qarşı tərəf Ermənistan ərazisindəki obyektlərə, həmçinin Metsamor AES-ə zərbələr endirə bilər.



Sadə və təcrübəsiz oxuculara ilk növbədə, izah edilməlidir ki, atom elektrik stansiyaları nədir və onların qeyri-peşəkar istismarı hansı fəlakətlərə gətirib çıxara bilər? AES-də atom reaktorunda əldə edilən istilik fırlanan turbogeneratorların hərəkəti üçün su buxarının alınmasına sərf edilir. Bu tip stansiyalarda qəzaların səbəbləri müxtəlifdir: operativ personal (əməliyyat heyəti) tərəfindən texnoloji intizamın pozulması, onların peşəkarlığındakı nöqsanlar, yəni, "insan amili".

Biz köhnəlmiş atom bloklarının istismarının ətraf mühit və qonşu ölkələr üçün riskli olduğu barədə dəfələrlə məsələ qaldırmışıq. Bu yazıda bir daha bunu yada salmağa ehtiyac yoxdur. Amma AES-də baş verən qəzadan sonra nələr olduğunu həmişə yadda saxlamalı və bunu unutmamalıyıq.

İnsanlar şüalanma xəstəliyindən ən çox əziyyət çəkirlər. Bu xəstəlik orqanizmə ionlaşdırıcı şüaların mümkün həddi üstələyən miqdarlarda təsiri zamanı yaranır. Oxucuları Çernobıl AES-də baş vermiş qəzanın nəticələrini yada salmağa dəvət edirəm. O zaman Avropanın yarısı radioaktiv şüalanmadan əzab çəkmişdi. Ərazi, su, mühit, flora və faunaya ziyan dəymişdi ki, təbiətin çirklənməsinin nəticələri indiyə qədər də müşahidə olunur.

Akademik təhsilli mütəxəssis kimi ölümcül təhlükə haqqında qısa şəkildə "oxucunu maariflәndirmək"lə bildirmək istəyirəm ki, qəzadan uzaq olsaq belə, hər kəs bu təhlükədən öz "payını" alaraq şüalanmanın təsirinə məruz qalacaq. Bu məsələ barədə mən sizə məlumatlı bir şəxs kimi danışıram.

İonlaşan şüalanma radioaktiv dağılma, nüvə çevrilmələri, zəhərli zərrəciklərin maddədə ləngiməsi zamanı yaranır və ion mühiti ilə əlaqəyə girdikdə müxtəlif qütblü ionların yaranmasına səbəb olur.

Xatırladım ki, o dövrdə yerli icra hakimiyyəti orqanları rəhbərlərinin qətiyyətsizliyi və səriştəsizliyi səbəbindən yod profilaktikasının aparılması barədə qərar 1986-cı il mayın 6-da gecikdirilməklə verilmişdi. Nəticədə minlərlə insan qalxanvari vəzinin yüksək dozada (300 ber) şüalanmasına məruz qaldı. Hazırkı dövrdə biz Çernobıl qəzasına bənzər fəlakətin təkrar olunacağından tamamilə sığortalanmamışıq. Elə AES-in ölkəmizdə olması artıq müəyyən zəhərlənmə riski və təhdidi yaradır. Lakin bu gün söhbət ondan gedir ki, əgər biz düşməni onun iri şəhərlərinə, əhalisinin sıx yaşadığı rayonlarına, sənaye obyektlərinə zərbə endirməklə təhdid edirikсə, o da öz növbəsində sakit dayanmayacaq, bu addımları cavabsız qoymayacaq. Məsələn, onlar Ermənistandakı vacib hədəflərə zərbə endirə bilərlər. Belə ki, təkcə Metsamor AES-in vurulması nəticəsi bəlli olmayan qlobal qəzaya gətirib çıxara bilər. 1986-cı ildə Çernobılda nələr baş verdiyini unutmağa haqqımız yoxdur. Mənim və bizim hərbi mütəxəssislərin qiymətləndirmələrinə görə, əgər Metsamor AES vurularsa, aşağıdakıların baş verməsi mümkün ola bilər:

* Metsamor AES-in nüvə reaktorunun gücü (815 MVt) Çernobıl AES-in gücündən (3000 MVt) az olmasına baxmayaraq, söhbət 1986-cı ildə baş vermiş qəzaya analoji olan "qlobal qəza"dan gedir. O zaman çirklənmə Ukrayna ilə yanaşı, Belarus, Rusiya, Polşa, Norveç və bir çox digər Avropa ölkələrinə külək vasitəsilə yayılmışdı;
* Metsamor qəzası nəticəsində, heç şübhəsiz, "bulud" nəinki stansiyaya yaxın yaşayış məntəqələrini bürüyəcək, hətta Ermənistanla həmsərhəd olan ölkələrin ərazilərinə də keçəcək.

Heç kimi qorxutmaq istəməzdim. Baş verə biləcək qəza zamanı itkilərin 10 min nəfərədək olacağı barədə ekspertlər tərəfindən fikirlər söylənilir. Onlardan 3,5 min nəfərinin tamamilə məhv olacağı bildirilir.

Bütün bunlardan nəticə çıxararaq bizim böyük strateqlərə bir daha xatırlatmaq istərdim ki, hər hansı bir addımın atılmasını planlaşdırmadan əvvəl mümkün nəticələri, xüsusilə də qarşı tərəfin cavab tədbirlərini dərindən düşünmək lazımdır.

Necə deyərlər, "Külək əsdirsən, fırtınada boğularsan!"

# Anlar tarix yaradır



Tarix - yaddaşdı, yaddaş - tarix. Çox şeyə görə yaddaşa borcluyuq...

Video-kameranın yaddaşına köçürülən anlar dövlətə, dövlətçiliyə bağlıdırsa, daha həssaslıqla, daha mühafizəkarcasına qorunur, yaşadılır. Tariximizin tərkib hissəsi olması üçün yaşadılır.

Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Xalq qımıldanan, gərnəşən iddianın qarşısını silahla, silahına söykənən yurd sevgisiylə kəsdi - torpaqlarımızı əhali, bir də könüllülərdən ibarət yerli müdafiə batalyonları qoruyurdu. Nizami ordu formalaşmadığından belə müdafiə etibarlı deyildi...

Bağanıs-Ayrımda, Meşəlidə, Ağdabanda törədilənlər video-yaddaşa ya köçürülməmişdi, ya da peşəkar çəkilişlər olmamışdı - dünya ictimaiyyətinə təqdim edilmə, müəyyən mənada, çətinləşdi. O illərdə müstəqil Azərbaycanın müharibə tarixini (deməli, tarixini!) tarixləşdirmək nə qədər gərəkli olardı!..

1993-cü il iyunun 2-də Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyası yaradıldı. Ordu quruculuğuna yardımçı olsun deyə yaradıldı. Döyüşlərin tarixini yaşatmaq üçün yaradıldı. Anları tarixləşdirə-tarixləşdirə sabahlar üçün yaradıldı...

Vəzifə borcu ilə vətənpərvərlik bir-birini tamamladığından Studiyanın boyu aydınlığıyla görünürdü...

Döyüş bölgələrində döyüşən əsgərlərlə, zabitlərlə bilavasitə ünsiyyət həvəsi, qəhrəmanlarla diz-dizə söhbətləşmək istəyi, ordunun şəxsi heyətinin də, əhalinin də ruhunu - qələbə əzmini ucalıqlarda yaşatma missiyası (müharibənin video-foto tarixini yaratmaq, qələbəyə yardımçı olmaq) jurnalistlərin də, operatorların da könül dünyasından süzülən nur idi və bu nur kadrlara, verilişlərə, sənədli filmlərə çevrilirdi. O illərdə cəmiyyət AzTV-də "And" proqramı ilə təqdim edilən verilişləri, sənədli filmləri olduqca həssaslıqla, ehtiramlarla qarşılayırdı...

Seyidağa, Nizami, Etibar, Nəriman, Telman, Rahib,...

"Həsrət" sənədli filmi 1993-cü ilin iyun-oktyabr aylarında Zəngilanda çəkilmiş kadrlar əsasında montaj olunub. Döyüşlər, döyüşənlər, torpaq, torpaq sevgisi, mühasirədən aylar əvvəl zəngilanlıların ata yurdundan perik düşməsinə istiqamətləndirilmiş qərəzli cəhd, camaatın əsgərləşməsi, mühasirə, oktyabr döyüşləri, ... , işğal, Araza üz tutan əhali, yerişi yolla sürünən qocalar, uşaqlar, ...

Həsrət zəngilanlıların, bu anlamda doğma yurdundan iraq düşənlərin can ortağıdı. Bu ağrılı anın baxışları qaranlıqların içindən uzaqlara dikilib. Alnının qırışlarının konturları işğal olunmuş ərazilərimizin "lal" xəritəsidi elə bil...

Dan yeri sökülür. Bu şərtilik inamdı: Günəş (inam) qaranlığı (həsrəti) əridir. Bu şərtiliyin bir yozumu var: torpaqlarımız işğaldan azad ediləcək, zəngilanlılar da doğma yurdlarına qayıdacaq! Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyası bu inamın da studiyası idi.

Yüzlərlə saatlıq çəkilişlər - studiyanın xronikası belə ölçülür. Müxtəlif bölgələrdə, müxtəlif hərbi hissələrdə, müxtəlif məkanlarda döyüşlərdən əvvəl, döyüşlərdə, döyüşlərdən sonra, atəşkəsdən sonrakı illərdə çəkilmiş dəyərli kadrlardandır.

1993-cü ilin qışında Ağdam hospitalının həyətində bir ayağı amputasiya olunmuş keçmiş döyüşçü Şərifin çılğınlıqla tək ayağıyla oynadığı "Cəngi"ni sonralar "Biz qayıdacağıq" bədii filmində gördük; Studiya kinomunun inkişafına da yardımçı olub...

"Müharibə illərinin uşaqları" sənədli filmində Tovuz rayonunun Əlibəyli kəndində çəkilmiş bir epizod var: 12-13 yaşlı Yaqubun qayğılı baxışları. Az sonra onun tay-tuşlarına ünvanlanmış kəlmələri - "Mənim yolum başqadı..." - düşüncələri silkələmişdi. Bu məqam unudulası məqam, bu kəlmələr unudulası kəlmələr deyildi; "Ağ atlı oğlan" bədii filmi yada düşür...

Xalq artisti, möcüzə səsli Qədir Rüstəmovun oxumalarını çox eşitmişik. Ona, onun timsalında qaçqın səslərə (sənətkarlara) həsr olunmuş sənədli filmin çəkilişləri Oğuz rayonunun meşələrində aparılıb. Qədirin oxuduqları (Qədiri ağacların xırdaca budaqlarını ehtizaza gətirən meh, bulaqların zümzüməsi müşayiət edirdi) müqayisəyəgəlməz şəkildə bənzərsiziydi; o məqamları Studiya tarixləşdirdi. "Elə bil əllərim yox olub mənim..." - Qədir heç zaman bu biçim yanğıyla oxumayıb. Ruhumuza borc ödəmə olan belə kardların yaşarılığını Studiya təmin edib...

Hələ "Səma şahinləri"...

Hələ "Tonqal"...

Hələ daha neçə-neçə dəyərli digər sənədli filmlər...

Əsgərlər necə döyüşürdülər? Əsgərlərin mənəvi-psixoloji hazırlığı necə təşkil edilirdi? Əsgərlər təlimlərdə necə iştirak edirdilər? Bu kimi sualların cavabı Studiyanın xronikasındadı...

O qədər də geniş texniki imkanlara malik olmayan darısqal montaj otağı, sözün əsl mənasında, yaradıcılıq "laboratoriyası"ydı - bu və ya digər ideya ətrafında fikir mübadilələri, montaj (bəzən gecələr də), verilişə (sənədli filmə) ilkin baxış, sağlam iradlar, ...

"And" proqramının xətti ilə AzTV-yə təqdim edilən verilişlərdən bircə kadr da dəyişdirilmədi. "Peşəkarlıq çox şeyə qadirdir" tezisi özünü həmişə doğruldub...

Sənədli və Tədris Filmləri Kinostudiyasının (rəisi polkovnik-leytenant Samir Əfəndiyevdir) hazırladığı "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir" sənədli filmi bu döyüşlər haqqında ümumi təəssürat yaradır. Bu, sənədli kinonun tələblərini dolğunluğuyla ödəyir; ordu quruculuğunda yaxından iştirak edən Studiya Ali Baş Komandanın, Müdafiə nazirinin tələb və göstərişlərinin necə yerinə yetirildiyinin tarixini yaradır, yaşadır...

Studiyanın səliqəylə, bütün amillər nəzərə alınmaqla hazırlanmış kartotekası istər ordu quruculuğunu mərhələlərlə tədqiq edənlərə, istərsə də hərbi mövzuda sənədli əsər yazanlara kifayət qədər gərəklidir (gərəkli olacaq)...

Studiya əsaslı təmir edilib. Müəyyən mənada, yenidən qurulub. Olduqca zövqlə, bütün müasir texniki yeniliklərin tətbiqi nəzərə alınmaqla qurulmuş çəkiliş pavilyonu hazırlanan və hazırlanacaq sənədli filmlərin texniki səviyyəsinin yüksək olacağının zəmanətidi...

Bir bayatıda deyildiyi kimi, tikilən qalır, yazılan qalır, çəkilən qalır; tarixləşdirilən anlar da kadr biçimində tarixdi...

Studiya yaradılan tarixi yaşadır...

**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# "Yelkən"dən böyük dünyaya




*Uşaqlıq dünyası...*

*Bənzərsizliyiylə, saflığıyla, səmimiyyətiylə könülə yatan, könül xoşluğuna dönən bu dünya nədən böyük dünyaya görk olmur? Uşaqlıq dünyası niyə dünyanın Dan ulduzu olmasın? Nədən uşaqların təbəssümünü insanın insana, dövlətin dövlətə münasibətinin "yolgöstərəni" bilməyək? Nədən?..*

Hərbi Dəniz Qüvvələrinin nəzdində fəaliyyət göstərən "Yelkən" uşaq bağçası ötən il cari təmir olunub. Burada dənizçi hərbi qulluqçuların uşaqları üçün hər cür şərait yaradılıb. Bağça həm də əyləncələriylə, təfəkkürü inkişaf etdirən oyuncaqlarıyla, qurğularıyla uşaqların erudisiyasının ilkin inkişafı, gələcəkdə formalaşması üçün mühüm vasitələrdəndi. Bağçanın müdiri İradə Rəsulzadə deyir ki, tərbiyəçilər uşaqların maraq dünyasını müəyyənləşdirirlər, əyləncələri bu istiqamətdə təşkil edirlər. Çalışırlar ki, əyləncələr didaktik xarakterli olsun. Belə əyləncələr həm öyrədir, həm də uşaqlarda kollektivçilik ruhu yaradır ki, bu da məktəblərdə son dərəcə gərəkli olur. Tərbiyəçilərdən Bəturə Əliyeva, Qalina Doljinkova, Kəmalə Məmmədova, Yelena Yaşina və başqaları uşaq dünyasına yaxşı bələddirlər.

...Bağçada tədbirdi. 23 uşaq bu il məktəbə gedəcək. Necə deyərlər, onların buraxılış günüdü; "Əlvida, bağça!" yazısı hamını bir duyum qədərincə kövrəldir...

Uşaqların baxışları çiçəkçiçək gülümsəyir...

Bağçanın uşaqları bayram tədbirlərində çox olub. Bugünkü tədbir onların özlərinə ad olan bayram ovqatlı tədbirdi. Bu günün sevincini, fərəhini heç biri heç zaman unutmayacaq.

Aparıcılar da uşaqlardı. Leyli də, Mətanət də o qədər şirin, o qədər intonasiyalı, o qədər emosional danışır ki! Bağçada keçirdikləri xoş günlərdən danışırlar, məktəbə gedəcəkləri günün həyəcanından, sevincindən danışırlar. Mahnılar rəqslərlə müşayiət olunur. Uşaqlar Fəxriyyə müəllimin öyrətdiklərini dəqiqliklə yerinə yetirirlər. Rəqs elementlərinə adi baxışla baxmaq mümkün deyil. Riyad, Yusif, Yaqut, Şəms, Cahan, ... o qədər plastik rəqs edirlər ki!..

Gülay şərti məktəb zəngini çalır. Sevinci, qüruru yerə-göyə sığan deyil. "Vaxt gələcək, oxuduğu məktəbdə də son zəngi o çalacaq" - düşünürəm. "Məktəbin əlaçı şagirdi kimi...".

Oğlanlara baxıram - Azərbaycanımızın sabahkı əsgərlərini görürəm.

Məqam tapıb Yusiflə kəlmələşirəm. "Azərbaycanın Milli Qəhrəmanlarını tanıyırsanmı?" - soruşuram. "Yusif Mirzəyev, Mübariz İbrahimov, Murad Mirzəyev, Samid İmanov, Çingiz Qurbanov, ..." - deyir. 6 yaşlı uşağın Milli Qəhrəmanlarımıza bu biçim sevgisi ürəyimi dağa döndərir...

...Dünyanı uşaq təbəssümü xilas edəcək qənaətində israrlıyam. Hərbi Dəniz Qüvvələrinin nəzdində fəaliyyət göstərən "Yelkən" uşaq bağçasında gördüklərimin zəmanətiylə...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**



# Ermənistan və Azərbaycan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 7-də Tovuz rayonunun Əlibəyli kəndi yaxınlığından keçən Ermənistan və Azərbaycan dövlət sərhədində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndə səfir Anjey Kasprşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir.**

**2. Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir.**

**Mövzu:** Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin, döyüşdə isə müvəffəqiyyətin əsas prinsipi və şərtidir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin İntizam Nizamnaməsindən istifadə etməli, bölmədə hərbi intizamın vəziyyətini və xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

*Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir*

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. Azərbaycan Respublikasının Silahlı Qüvvələri bu müqəddəs vəzifələri yerinə yetirmək üçün daim döyüşə hazır vəziyyətdə olmalıdır.

Şüurlu hərbi intizam - yüksək döyüş hazırlıqlı və döyüş qabiliyyətli ordunun əsas şərtidir.

Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir. Silahlı Qüvvələr Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Silahlı Qüvvələrin hərbi qulluqçuları bütün Azərbaycan vətəndaşları kimi Azərbaycan Respublikasının qanunlarının tələblərinə şüurlu surətdə ciddi riayət edirlər. Bununla yanaşı, Silahlı Qüvvələrdə hərbi intizamın öz xüsusiyyətləri var. Silahlı Qüvvələr sıralarına daxil olarkən Hərbi And içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı, çətinliklərə dözməyə, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi intizam İntizam Nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizam hərbi qulluqçuların şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına, Vətənə sonsuz məhəbbət bəsləmələrinə və hərbi intizamın tələblərinə şüurlu surətdə tabe olmalarına əsaslanır. İntizam Nizamnaməsinin 2-ci maddəsi də hər bir hərbi qulluqçunun hərbi borcunu və öz Vətəni Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsini tələb edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində hərbi intizam anlayışı belə müəyyən edilir: "Hərbi intizam - bütün hərbi qulluqçuların Azərbaycan Respublikası qanunlarında və hərbi nizamnamələrində müəyyən olunmuş qaydalara ciddi riayət etməsi deməkdir."

Hərbi intizam hər bir hərbi qulluqçudan aşağıda göstərilənləri tələb edir:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etməyi, Hərbi Andın və hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirməyi, komandirlərin (rəislərin) əmr və sərəncamlarına sözsüz tabe olmağı;
- hərbi xidmətin bütün çətinliklərinə mətinliklə dözməyi, hərbi borcunu yerinə yetirərkən qanını və həyatını belə əsirgəməməyi;
- hərbi və dövlət sirlərini möhkəm saxlamağı;
- namuslu və dürüst olmağı, hərb işini vicdanla öyrənməyi, tapşırılan silahı, döyüş texnikasını və digər texnikaları, hərbi əmlakı və xalq əmlakını hər vasitə ilə qorumağı;
- komandirlərə (rəislərə) və böyüklərə hörmət etməyi, əsgəri nəzakət və salamvermə qaydalarına əməl etməyi;
- hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparmağı, ictimai asayişin özü və başqaları tərəfindən pozulmasına yol verməməyi;
- vətəndaşların şərəf və ləyaqətinin qorunmasına hərtərəfli səy göstərməyi.

Hər bir hərbi qulluqçu bilməlidir ki, yüksək hərbi intizama nail olmaq olar:

- hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaqla;
- hissədə (bölmədə) nizamnamə qaydalarına ciddi riayət etməklə.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur:

- Azərbaycanın mənafeyini qorusun;
- onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin;
- Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi Anda müqəddəs və sarsılmaz surətdə riayət etsin;
- intizamlı, vicdanlı, dürüst və cəsarətli olsun; komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin.

*Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir*

Döyüş - müharibədə qələbə qazanmağın yeganə vasitəsidir. Döyüşdə düşmənin darmadağın edilməsi və qələbə bütün silah növlərinin güclü zərbələri, zərbələrin nəticələrindən vaxtında istifadə etmə, hissə və bölmələrin fəal, qətiyyətli hərəkətləri ilə əldə edilir.

Döyüşdə müvəffəqiyyətin qazanılmasında şəxsi heyətin şüurlu hərbi intizamı, komandirlərin əmrlərinin dəqiq və sözsüz yerinə yetirilməsi, intizamsızlığın, zəif icraçılığın, hərbi andın və müharibə dövrünün qanunlarının tələblərindən geri çəkilməyin qarşısının qəti alınması, yerli əhaliyə qarşı nalayiq hərəkətlərə və qarətçilik hallarına yol verilməməsi böyük əhəmiyyətə malikdir.

Müasir şəraitdə şəxsi heyətin intizamı və mütəşəkkilliyi aşağıdakılarla bağlıdır:

- hərbi işin inkişaf etməsi, hərbi hissələrin yeni tipli silahlarla və döyüş texnikası ilə təchiz olunması, döyüşaparma üsullarının kökündən dəyişməsi ilə;
- müasir silahların bir çox növlərinin kollektiv surətdə istifadə olunması, həmin silahların müvəffəqiyyətli tətbiqi ekipaj və heyət üzvlərinin, müxtəlif ixtisaslı hərbi qulluqçuların dəqiq, birgə və bacarıqlı hərəkətlərindən çox asılılığı;
- yeni müasir silahlardan istifadə etmə üsul və qaydalarının öyrənilməsində mövcud olan çətinliklərlə bağlı gərginliyin artması, müasir müharibədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasının zəruriliyi ilə.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası Ermənistanın silahlı qüvvələri tərəfindən təcavüzə məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin bir hissəsi erməni silahlı birləşmələri tərəfindən işğal olundu.

Həmin illərdə ictimai-siyasi vəziyyət qeyri-sabit idi. Ölkədaxili çəkişmələr, respublika rəhbərliyinin dövlət idarəetmə sahəsində səriştəsizliyi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz mənfi təsirini göstərirdi. Vahid komandanlığın olmaması pərakəndə hissə və birləşmələrin həyat və fəaliyyətini tənzimləməyə, onlara nəzarət etməyə imkan vermirdi. Bu isə hərbi hissələrdə nizamnamə qaydalarının kobud surətdə pozulmasına, şəxsi heyətin hüquqlarının tapdalanmasına, fərariliyin kəskin surətdə artmasına, döyüş meydanının özbaşına tərk edilməsinə, komandirlərin əmrlərinə və göstərişlərinə tabe olmamağa gətirib çıxarırdı. Belə hərbi hissələrin bütün döyüş əməliyyatları uğursuzluqla nəticələnirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli xahişilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunu öz xüsusi diqqətinə götürdü və qısa bir müddətdə Silahlı Qüvvələrimizin yüksək döyüş qabiliyyətli olması üçün təsirli tədbirlər gördü. 1993-cü ilin axırlarında, 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarının uğurlu olmasında vahid komandanlığın, möhkəm şüurlu hərbi intizamın böyük rolu vardır.

Ulu Öndər 1993-2003-cü illərdə ordu quruculuğu ilə bağlı bütün çıxışlarında, Silahlı Qüvvələrin hissə və birləşmələrində şəxsi heyətlə bütün görüşlərində möhkəm hərbi intizamın əhəmiyyətini xüsusi vurğulamışdır. Belə görüşlərdən birində onun dediyi "Orduda, hər bir hərbi hissədə yuxarıdan-aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır" sözləri bu gün də bütün hərbi qulluqçuların Vətən, xalq, dövlət qarşısında məsuliyyətlərini çox dəqiq ifadə edir və onları intizamlı olmağa çağırır.

Azərbaycanın ərazi bütövlüyünün hələ bərpa edilmədiyi, torpaqlarımızın düşmən işğalında olduğu bir vaxtda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gündəlik həyatında hərbi intizamın əhəmiyyəti gündən-günə artır. 2016-cı tədris ilinin yekunları bir daha göstərir ki, möhkəm hərbi intizamın mövcud olduğu hərbi hissələr tədris ilində qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələ bilmişlər. Bu isə hər bir hərbi qulluqçudan 2017-ci ildə hərbi hissədə yüksək döyüş qabiliyyətinin saxlanılmasını, döyüş hazırlığının yüksəldilməsini, hissə və bölmənin tapşırıqlarının müvəffəqiyyətli həlli üçün öz vəzifə borclarını şüurlu dərk etməyi və onları vicdanla yerinə yetirməyi tələb edir. Azərbaycan Respublikasının hərbi qulluqçusu bir daha dərk etməlidir ki, yalnız möhkəm hərbi intizama malik olmaqla dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu gün də ordu quruculuğunu daim diqqət mərkəzində saxlayır. O öz çıxışlarından birində demişdir: "Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Azərbaycan Ordusunun yeni müasir texnika və silahlarla təchiz edilməsi, hərbi qulluqçuların şəraitinin yaxşılaşdırılması, zabit, gizir heyətinin və onların ailə üzvlərinin yeni mənzillərlə təmin edilməsi üçün görülən işlər və şəxsi heyətə göstərilən qayğıdır. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin cəbhə xəttində yerləşən hərbi hissələrə ardıcıl səfərləri də Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığında mühüm əhəmiyyət kəsb edir.

*Qrup rəhbəri bu mövzunu şəxsi heyətə şərh edərkən hərbi hissənin yerinə yetirdiyi tapşırıqların xüsusiyyətini, bölmədə intizamın vəziyyətini nəzərə almalı, mövzunu günün tələbləri ilə əlaqələndirməli, konkret faktlar gətirməlidir.*

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Sözə ömür verə-verə sözdən ömür umanların yazdığı şeirlər duyğuluların könül sirdaşına dönür. Söz şeirləşəndə gözəlləşir. Məzmununa uyarlı musiqiylə təqdim edilən şeir daha təsirli olur. Hər şeir, hər musiqi könülə yatmır - duyğuları titrətmir, düşüncələri tərpətmir. Musiqinin məzmunu şeirin məzmununu (və poetikasını!) ifadə edirsə, ifanın peşəkarlığı əsərin qayəsini tamamlayırsa, belə musiqi əsərini möhtəşəm əsər bilirik.*

Düşüncələr

# “Horadiz halayı”ndan “Qələbə halayı”na



Əməkdar İncəsənət xadimi Abdulla Qurbaninin sözlərinə Qara Qarayevin tələbəsi olmuş Azad Zahidin yazdığı "Horadiz halayı" musiqi əsərini ruhumun ruhu kimi dinləyirəm. Səssizlikdə hərdən əsən, hərdən kəsən yel ağacların yarpaq yüklü budaqlarına necə sarılırsa, "Horadiz halayı" dinləyənin ruhuna elə hopur; o ünsiyyətlə bu ünsiyyət arasında ecazkar bir eynilik duyulur...

"Horadiz halayı" tarixi əsər kimi də dinlənilir.

Horadiz işğal olunmuşdu. 1994-cü ildə xalqın tələbiylə hakimiyyətə qayıdan Heydər Əliyevin xeyir-duasıyla Azərbaycan əsgərləri üzərində "Heydər Əliyev uğrunda!" sözləri yazılmış tanklarla müqəddəs döyüşə atıldılar. Horadiz qəsəbəsinin və daha 20-dən çox yaşayış məntəqəsinin yaxasından yapışmış əllər biləyindən kəsildi...

Qəsəbənin xarabalıqlarında yeni Horadiz salındı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Horadizə şəhər statusu verildi. İndi şəhərin gözəlliyinə baxmaqla doymaq olmur.

Bu gün Cocuq Mərcanlının, sabah işğaldan azad edəcəyimiz bütün yaşayış məntəqələrinin görkəmində Horadizlik görəcəyik...

"Horadiz halayı" musiqi əsəri dinləyənlərə nə deyir? - əsər məfkurə ətrafında birliyə çağırır, "kül altından dikələn", boy göstərən şəhərin timsalında yaxın vaxtlarda işğaldan azad ediləcək yaşayış məntəqələrində əhalini nə gözlədiyini xatırladır. Möhtərəm Prezidentimizin təəbirincə desək, "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük"...

Şeirdə simvollar düşündürücüdü: payızı qubara, qışı ayrılığa, həsrətə rəmz bilmək suç deyil. Yaz ifadəsi şeirdə təkcə fəsil məzmununu ifadə etmir. 2016-cı ilin apreli anılır, aprel zəfəri xatırladılır. Şeir deyir ki, yaz payızın, payız qışın son nəfəsidi, yaz (qələbə, zəfər) işğalın son nəfəsi olacaq! "Horadiz halayı" niyyət, muraz, arzu halayıdı. "İgid əsgər, səngərində oyaq dur!" öyüdüylə, "qələbə yoluna - izinə çıx" tövsiyəsiylə, "Lələtəpədən dəriləcək güllərin-çiçəklərin Cıdır düzünün güllərinin-çiçəklərinin ətrinə qarışması" təmənnasıyla...

"Horadiz halayı" Horadizə çağırır. Horadizdən Şuşaya nə qalır ki? - "bir at mənzili" (şeirdə "kəhərlərin yəhərlənməsi" məhz bu qənaətin poetik ifadəsidi), sülh danışıqları baş tutmasa - bir döyüş qədərincə məsafə. "Horadiz halayı" bu inamın söz, musiqi, söz-musiqi biçimli təzahürüdü. Dinləyirsən, özünü halayda hiss edirsən. Sənə elə gəlir ki, bu musiqi əsəri indicə ürəyini çəkib Qarabağa aparacaq. Abdulla Qurbaninin sözünün (şeirinin), Azad Zahidin musiqisinin qüdrətidi bu! Davulun coşqusu qara zurnanın harayına qarışır, haray oxumaların bənzərsizliyinə. Təqdimatda mətləb möhtəşəmdi: Vətən sevgisi! Dövlət! Dövlətçilik!..

Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən tədbirlərin birində səsləndirilən fikirlərin ("Vətənin mehi ilə, yeli ilə vətənləşin!", "Coşub-daşan seli ilə vətənləşin!", "Tər çiçəyi, hər çiçəyi, gülü ilə vətənləşin!", ...) məntiqi davamıdı "Horadiz halay"ı. "Horadiz halayı" Vətən kəlməsini ürəyində cücərdənlərin halayıdı...

"Horadiz halayı" günümüzü sabahlarımıza ad eləyən kompozisiyadı...

"Horadiz halayı" həm də düşüncələr üçündü...

"Horadiz halayı" Azərbaycan əsgərinin ruhunun can ortağıdı...

"Horadiz halayı"nın göylərində qürurla dalğalanan üçrəngli bayrağımızı görürəm...

"Horadiz halayı" dönməz inamla qələbə halayının uzaqda olmadığını deyir...

Qurtuluş Günü Horadizdə ictimailəşdiriləcək "Horadiz halayı"...

"Horadiz halayı" ömrünü Vətənə ad edənlərin halayıdı...

Amalın, əqidənin, məqsədin, niyyətin halayı olan "Horadiz halayı" hamımızı bir halayda - Qələbə halayında birləşdirəcək...

Cıdır düzündə səslənəcək "Qələbə halayı"nın başlanğıcıdı "Horadiz halayı"...

"Horadiz halayı"ndan "Qələbə halayı"na uğur üstəsiniz, Azərbaycan əsgəri! Bu əsər qoruduğunuz torpağa sevgidi, özünüzə ehtiramdı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Şəhid pilot Feyruz Cəlilovun xatirəsi anılıb

*Siyəzəndə Qarabağ müharibəsində böyük şücaət göstərərək şəhidlik zirvəsinə ucalan, Azərbaycanın ilk hərbi pilotlarından biri Feyruz Xanbala oğlu Cəlilovun xatirəsi anılıb.*



AZƏRTAC xəbər verir ki, qəhrəman pilotun ailə üzvlərinin, döyüş yoldaşlarının da qatıldığı anım mərasimi şəhidin doğulub boya-başa çatdığı Məşrif kəndində onun adını daşıyan kənd tam orta məktəbinin qarşısında keçirilib.

Tədbirdə çıxış edənlər 34 yaşında şəhid olmuş F.Cəlilovun şərəfli ömür və döyüş yolu haqqında danışıblar.

Feyruz Cəlilov 1957-ci il mayın 30-da anadan olub. Orta məktəbi bitirdikdən sonra Ukraynada Kremençuq Mülki Aviasiya Təyyarəçilik məktəbində təhsil almağa başlayıb. 1981-ci ildə həmin məktəbi bitirdikdən sonra Zabrat aviamüəssisəsində əmək fəaliyyətinə başlayıb. 1986-cı ildə istehsalatdan ayrılmadan Kiyev Mülki Aviasiya Mühəndisləri İnstitutuna daxil olub və 1992-ci ildə təhsilini uğurla başa vurub.

Qarabağ müharibəsinin ən qızğın vaxtında kapitan Feyruz Cəlilov könüllü olaraq əməliyyatlara qoşulub. Həmin illərdə Azərbaycan hərbi aviasiyasının şəxsi heyəti mülki aviasiyanın pilotları hesabına formalaşırdı. F.Cəlilov Kəlbəcər və Ağdərə rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərib. 1993-cü il avqustun 30-da onun idarə etdiyi helikopterin Qubadlı səmasında ermənilər tərəfindən vurulması uçuş heyətinin həlak olması ilə nəticələnib.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Feyruz Cəlilov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif olunub.



Şəhidin oğlu Qabil Cəlilov atasının yolunu davam etdirir. Hazırda aviamüəssisədə çalışan Qabil atası ilə fəxr etdiyini, torpaqlarımızın azadlığı uğrunda döyüşə atılmağa hər an hazır olduğunu bildirib.

Anım mərasimində şəhidin döyüş yoldaşları, onunla birlikdə işləmiş həmkarları çıxış edərək F.Cəlilovun gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi olduğunu diqqətə çatdırıblar.

Mərasimin sonunda Feyruz Cəlilov adına Məşrif kənd tam orta məktəbinin şagirdlərinin ifasında şeirlər səsləndirilib, ədəbi-bədii kompozisiya təqdim olunub.

# Xəbərlər:

## hadisələr, faktlar

### Rusiyanın Müdafiə naziri “Xəzər Kuboku”nda iştirak edəcək Xəzər Flotiliyasının hazırlıq səviyyəsini yoxlayıb



Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ölkənin Hərbi Dəniz Qüvvələrinin Xəzər Dəniz Flotiliyasının hazırlıq səviyyəsini yoxlamaq üçün Həştərxana gəlib.

Rusiyanın Xəzər Dəniz Flotiliyasının gəmiləri bu ilin yayında Azərbaycanın ərazi sularında keçiriləcək "Xəzər Kuboku" beynəlxalq hərbi-dəniz müsabiqəsində iştirak edəcəklər.

Nazir S.Şoyquya məlumat verilib ki, Xəzər Dəniz Flotiliyası 2020-ci ilədək 76 faiz yeni silah və döyüş texnikası ilə təchiz olunacaq. Hazırda flotiliyanın yenidən qurulması və infrastrukturunun inşası prosesi gedir.

S.Şoyqu flotiliyanın hərbi hissələrinin və birləşmələrinin hazırlıq vəziyyətini də yoxlayıb.

### Çin gəmiləri Yaponiyanın ərazi sularına daxil olub



Yaponiyanın Sahil Mühafizəsi İdarəsi bəyan edib ki, iyunun 5-də Çinin dörd patrul gəmisi Şərqi Çin dənizində, Senkaku adaları yaxınlığında Yaponiyaya məxsus ərazi sularına daxil olub. Hadisə səhər saat 10:30 radələrində Uotsuri adası yaxınlığında baş verib.

İdarənin əməkdaşlarının bildirdiyinə görə, Çin gəmiləri təqribən iki saat həmin ərazidə qalıblar.

Senakaku adaları Yaponiyanın nəzarəti altındadır. Yaponiya Hökumətinin mövqeyinə əsasən, həmin adalar ölkə ərazisinin ayrılmaz tərkib hissəsidir. Buna baxmayaraq, Çin və Tayvan da həmin adalara iddialıdırlar.

### ABŞ-ın aviadaşıyıcı gəmiləri Yapon dənizini tərk ediblər



ABŞ-ın "Carl Vinson" və "Ronald Reagan" aviadaşıyıcı gəmiləri üçgünlük təlimləri başa vuraraq, Yapon dənizini tərk ediblər.

Aviadaşıyıcı gəmilər üç həftə bundan əvvəl, Şimali Koreyanın üç ballistik raket sınağından sonra Yapon dənizində birgə təlimlərdə iştirak ediblər. Təlimlər başa çatdıqdan sonra bu gəmilər Yapon dənizini tərk ediblər. "Carl Vinson" gəmisi dislokasiya yerinə, Kaliforniyadakı San-Dieqo limanına, "Ronald Reagan" gəmisi isə ABŞ-ın Tokionun yaxınlığındakı Yokosuke bazasına yollanıb.

Sakit okeanın qərbində patrul xidmətini "Carl Vinson" gəmisinin əvəzinə "Nimits" aviadaşıyıcısı yerinə yetirəcək. "Nimits"in iyulda Hind okeanına gedərək burada Hindistan və Yaponiya silahlı qüvvələri ilə birlikdə hərbi təlimlərə qatılacağı, bundan sonra Fars körfəzinə yollanacağı bildirilir.

Yaponiya Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Koreya yarımadasında vəziyyət gərginləşəcəyi təqdirdə bu gəmi hər an marşrutunu dəyişə bilər.

### İŞİD qruplaşması Londonda törədilən terror aktına görə məsuliyyəti öz üzərinə götürüb



İŞİD terror qruplaşması şənbə günü Londonda törədilən terror aktına görə məsuliyyəti öz üzərinə götürüb.

Bu barədə terror qruplaşmasının mətbu orqanı olan "Amaq"ın açıqlamasında məlumat verilir.

Qeyd edək ki, terror aktı nəticəsində 7 nəfər ölüb, 48 nəfər xəsarət alıb. Britaniya polisi insidentlə əlaqədar 12 nəfəri saxlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# İdman döyüş ruhumuzu artırır

*Hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. Məhz buna görə də ordumuzda fiziki hazırlığa diqqət yüksəkdir. İstər arxa cəbhədə, istərsə də cəbhə xəttində yerləşən hərbi hissələrdə yeni idman şəhərcikləri salınır, müasir idman alətləri ilə təmin edilmiş trenajor zalları fəaliyyət göstərir.*



Tank qoşunlarına məxsus olan "N" hərbi hissəsindəyik. Hərbi hissənin şəxsi heyətlə iş üzrə zabiti ilə idman şəhərciyinə yollanırıq. Hərbi hissənin ərazisində müasir idman şəhərciyi diqqətimi çəkdi: geniş ərazisi, müxtəlif idman alətləri, səliqəli futbol və voleybol meydançaları və s. Ətrafındakı yaşıllıq və uca şam ağacları idman şəhərciyinin necə əlverişli yerdə salındığını göstərir. Burada idman edən əsgərlərin çevik hərəkətlərini izlədikcə zövq alırsan. Hər biri idmançı görkəminə malik, çevik və çəlddir.

Komandirlərinin nəzarəti altında nizamla məşq edən əsgərlərə yaxınlaşıram. Taqım komandiri baş leytenant Rüfət Quluzadə və əsgərlərlə görüşürəm. "Hər bir əsgər yaxşı bilir ki, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün döyüşə hər an hazır olmalıdır. Döyüşdə qalib gəlmək üçün fiziki hazırlığın da yüksək olmalıdır. Güclü və möhkəm olmalısan ki, düşməni hər şəraitdə məhv edə biləsən. Bunu yaxşı başa düşən əsgərlərimiz fiziki hazırlıq dərslərinə xüsusi diqqət göstərir, idman alətlərində həvəslə məşq edirlər", - zabit deyir.

Onun dediklərinin əyani şahidi oluram. Əsgərlər komandirlərinin göstərişinə əsasən, idman şəhərciyindəki alətlərdə həvəslə, yorulmadan məşq edir, idman hərəkətlərini çox ustaqlıqla yerinə yetirirlər. Dayaqdan dartınma hərəkətini bitirib nəfəsini dərən əsgərlərlə həmsöhbət oluram. Əsgər Kənan Əlizadə hərbi xidmətə Tərtər rayonundan çağırılıb. Bir ilə yaxın müddətdir ki, xidmət edir. Hərbi xidmətini başa vurduqdan sonra ordu sıralarında qalıb xidmətini davam etdirmək istədiyini deyir.

- Hərbi xidmətimi başa vurmağıma 7 aydan az müddət qalıb. Lakin bu formanı əynimdən çıxarmaq, komandirlərimdən ayrılmaq istəmirəm. Bütün əsgər yoldaşlarım kimi, idmana böyük marağım var. Hərbi hissədə keçirilən idman yarışlarında bir neçə dəfə iştirak etmişəm. Gördüyünüz kimi, bu meydançada idman məşqləri etmək üçün hər cür şəraitimiz var. Biz də bu şəraitdən istifadə edərək fiziki hazırlığımızı daim artırmağa çalışırıq.

Əsgər Murad Allahverdiyev hərbi xidmətə Biləsuvar rayonundan çağırılıb. On aydır xidmət edən əsgərlə söhbətim zamanı idmanın sərbəst güləş növü ilə məşğul olduğunu öyrənirəm. Rayon üzrə keçirilən turnirin qalibi olduğunu deyir. Hərbçi olmaq arzusunda olan Murad, əsgəri xidmətini başa vurduqdan sonra gizir rütbəsi almaq üçün kursa getmək istədiyini də bildirir.

- Döyüş meydanında çevik, möhkəm, dözümlü olmaq və verilən tapşırıqları cəld yerinə yetirmək üçün fiziki hazırlığımız daim yüksək olmalıdır.



Ona görə də fiziki hazırlıq məşğələlərində həvəslə iştirak edirik.

Taqım komadirinin göstərişi ilə paralel qolların yanında nizamla düzülmüş əsgərlər sıra ilə paralel qola qalxıb müəyyən təmrinləri yerinə yetirirlər. Onların maraqlı məşqini izləyirəm. Budur, növbə axırıncı əsgərə çatır. Taqım komandirinin "Alətə" komandası ilə paralel qola qalxır. Tapşırığı bacarıqla yerinə yetirir.

Əsgər Nihat Hüseynov da digər yoldaşları kimi idman məşğələlərində həvəslə iştirak edir. O, hərbi xidmətə İmişli rayonundan çağırılıb. Hərbi xidmətin gənclərin həyatında önəmli olduğunu deyir:

- Əsgəri xidmətdə hərbi biliklər, döyüş hazırlığı ilə yanaşı, dözümlülük, möhkəmlik, vətənpərvərlik öyrənirsən. Həmçinin fiziki hazırlığın yüksəlir. Hərbi xidmətdən əvvəl idmanla az məşğul olurdum. Dayaqdan dartınma hərəkətini, demək olar ki, bacarmırdım. Komandirimin və əsgər yoldaşlarımın dəstəyi ilə hər gün idmanla ciddi məşğul olmağa başladım. Artıq normativə uyğun dartına bilirəm. Fiziki hazırlığımız bizə döyüş ruhu aşılayır, inam hissimizi artırır.

Əsgərlərdən Zirə Feyzullayev, Şəmistan Nəbiyev, Eşqin Rzayev və başqaları hərbi hissədə fiziki hazırlığın artırılması üçün də yüksək şərait yaradıldığını, idmanla həvəslə və yorulmadan məşğul olduqlarını qeyd etdilər. Əsgərlər Vətəni sevməyi, ona sadiq olmağı və Vətənə layiqli xidmət etməyi özlərinə müqəddəs borc bilirlər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

## Ermənistanda hərbçilər arasında intihar və qətl halları rəsmi rəqəmlərdən dəfələrlə çoxdur

*Ermənistanda daha bir hərbçi intihar edib. 1981-ci il təvəllüdlü David Xaçatryan işğalçı ölkənin Müdafiə Nazirliyinin tabeliyində olan "N" saylı hərbi hissənin anbarında asılmış vəziyyətdə tapılıb. Ermənistanın İstintaq Komitəsinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, hadisə yerindən məktub tapılıb.*

Ermənistanda nəşr olunan "Lragir" qəzeti belə halların hərbi hissələrdə tez-tez baş verdiyini yazır. Son dörd ayda işğalçı ölkədə 13 hərbçinin intihar etdiyi deyilir. Bildirilir ki, bu faktlar mətbuata sızmasa heç kimin hərbi hissələrdəki vəziyyətdən xəbəri olmayacaq. Çünki bu ölkənin Müdafiə Nazirliyi ciddi cəhdlə belə halları cəmiyyətdən gizli saxlamağa çalışır. Hətta mətbuata hərbi hissələrdə baş verən intihar və qətllər haqqında yazmaq qadağası qoyulub.

Müstəqil ekspert Artun Saakyan cəmiyyəti ordudakı çatışmazlıqlara göz yummamağa çağırıb. QHT fəalları da hərbçilər arasında intihar və ölüm hallarının rəsmi rəqəmlərdən dəfələrlə çox olduğunu açıqlayıb. Məlumata görə, əksər hallarda hərbi hissə komandirləri ailələri aldadırlar. Ailələr oğullarının özünə qəsd etmələrinə inanmırlar. Hərbi komissarlıq əsgərlərin intihar etdiklərini desə də sonradan ortaya başqa faktlar çıxır. Əksər hallarda əsgərlərin yüksək rütbəli zabitlər tərəfindən öldürüldüyü məlum olur. Belə hallarla bağlı indiyədək heç bir hərbçi cinayət məsuliyyətinə cəlb edilməyib.

**AZƏRTAC**

*Hərbi ənənələr, yeniliklər*

## "Şimşək" döyüş modulu istifadəyə hazırdır



Müdafiə Sənayesi Nazirliyinin "Cihaz" İstehsalat Birliyi və CAR-ın "Emerging World Technologies (EWT)" şirkətinin birgə hazırladığı "Şimşək" adlı döyüş modulu sınaqlardan uğurla çıxıb.

Müdafiə Sənayesi Nazirliyinin məlumatına əsasən, istifadəsi təkərli və tırtıllı döyüş maşınlarında nəzərdə tutulan "Şimşək", hazırda BTR-70 zirehli transportyorlarının orijinal qüllələrindən bir sıra üstünlükləri ilə fərqlənir. 14,5 mm KPVT, 23 mm-lik ZU-23 və ya 30 mm-lik 2A42 avtomatik toplarla silahlandırıla biləcək qüllə 360 dərəcə fırlana və 90 dərəcə bucaq altında hava hədəflərinə atəş aça bilir. Qüllədə ikinci silah olaraq 7,62 mm-lik PKT pulemyotu yer alır.

Döyüş qülləsinin proqram təminatı azərbaycanlı mütəxəssislər tərəfindən hazırlanıb.

Mütəxəssislərin sözlərinə görə, sistem daha mobil olmaqla yanaşı, istənilən hava şəraitində hədəfləri təyin etmə və səmərəli atəş aça bilmə imkanlarına malikdir.

Hazırda "Şimşək" döyüş modulu Müdafiə Sənayesi Nazirliyində müasirləşdirilən BTR-70M zirehli transportyorlarına qurulur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 243
Nüsxə 4650